Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Lənkəran Dövlət Universiteti

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
_____dos. Zaur Məmmədov
"____" _____ 2025-ci il

Fənn sillabusu

İxtisas: 050706-Meşəçilik, 050701-Aqronomluq, 050616-İnformasiya texnologiyaları,050709-Torpaqşünaslıq-aqrokimya, 050707-Şərabçılıq
Fakültə: Aqrar və mühəndislik
Kafedra: Pedaqogika, psixologiya və incəsənət
I. Fənn haqqında məlumat:
Fənnin adı:*S/f.(Multikulturalizmə giriş)*
Proqram: *ARTN-nin 07.01.2015-ci il tarixli 16 №-li əmri ilə təsdiq edilmişdir. 2014-cü il Dövlət standartına uyğun.*
Kodu: HFS-B04.1
Tədris ili: II (2025-2026) Semestr: IV
Tədris yükü: Auditoriya -10 saat (5 saat mühazirə, 5 saat seminar)
AKTS üzrə kredit: 3 kredit
Tədris forması: Qiyabi
Tədrisin dili: Azərbaycan dili
II. Müəllim haqqında məlumat:
Adı, soyadı, dərəcəsi: m.Ağayev Namiq Adinali oğlu
E-mail ünvanı:
Kafedranın ünvanı: Lənkəran ş., Ə.Məmmədov 19
III. Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:
Əsas:
1.Heydər Əliyev, "Müstəqillik yolu", Seçilmiş fikirlər. Bakı, 1997
2. Azərbaycan Turizm və Mədəniyyət Nazirliyi. Multukulturalizn Azərbaycanda həyat tərzidir. Bakı, 2016
3. Azərbaycan Turizm və Mədəniyyət Nazirliyi. Multukulturalizn Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolu. Bakı 2012
4. Azərbaycan Turizm və Mədəniyyət Nazirliyi. Tolerantlıq. Bakı- 2015
5. Kuropyatnik A.İ. Multikulturalizm. Problemı soçialnoy stabilnosti polietniçeskix obşestv. SPb., 2000, qlava 1.
6. Abdulla K., Mifdən yazıya və yaxud Gizli Dədə Qorqud. Bakı, Mütərcim, 2009
7. Mehdiyev R.Ə. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı, 2008
8. Abdullayev K.M. Ulu Öndər Azərbaycan multikulturalizminin siyasi banisi kimi. Azərbaycan qəzeti, 23.07.2014. Mehdiyev R.Ə. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, 2012
Əlavə:
9. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı, 2004
10. Aslanova R. İslam və mədəniyyət. Bakı, 2002
11. Rüstəmov Y. Sivilizasiyaların qarşılıqlı münasibəti. Bakı, 2007
12.Niftiyev N. Azərbaycanda bigəyaşayış və multikulturalizm. Bakı, 2015
13.Həsənov Ə.Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005
14.Abbasbəyli A. Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, 2005
15.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995
IV. Prerekvizitlər: Fənnin tədrisi üçün öncədənbaşqa fənlərin tədris olunmasına zərurət yoxdur.
V. Korekvizitlər: Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.
VI. Fənnin təsviri və məqsədi:
Müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı əlaqələrini dərinləşdirən qloballaşma prosesi istər ölkədaxili, istər də beynəlxalq müstəvidə multikulturalizm siyasətinin əhəmiyyətini artırır. Belə ki, etnik-mədəni müxtəlifliyin genişləndiyi şəraitdə etnik, dini və mədəni tolerantlığın artmasına zəruri zəmin yaradan multikulturalizm siyasətinin alternativi olmaması açıq şəkildə özünü biruzə verir. Lakin multikulturalizm siyasətinin zəruriliyinin artdığı bir dövrdə bəzi dövlətlərdə bu və ya digər səbəblərdən həmin siyasətdən uzaqlaşmaq meylləri yaranmaqdadır.
Multikulturalizmin bir sıra dünya dövlətlərində iflasa uğradığı bir şəraitdə Azərbaycan Respublikası multikulturalizmi özünün dövlət siyasəti bəyan etmişdir. Azərbaycan Respublikasının bu siyasəti uğurla həyata keçirilməkdədir və bu sahədə ölkənin əldə etdiyi nailiyyətlər beynəlxalq səviyyələrdə də etiraf olunur.
"Multikulturalizmə giriş" - fənlərarası bir kursdur. Bu fənn fəlsəfə, politologiya, tarix, sosiologiya, kulturologiya və digər humanitar fənlərin bir çox nəzəri müddəalarından istifadə edir. Kursun əsas məqsədi bakalavr pilbsində təlisil alan tələbələrə multikulturalizmi bir sosial hadisə, ideologiya, siyasət, həyat tərzi kimi təqdim etmək, müasir dövrdə onun əhəmiyyətini göstərmək, dünya dövlətlərinin, o cümlədən Azərbaycanın multikulturalizm sahəsində tarixi təcrübəsini tədqiq etmək və tələbələr arasında tolerantlıq ənənələrini möhkəmləndirmək və inkişaf etdirməkdir.
Multikulturalizmə giriş fənni bakalavr pilləsində seçmə fənn kimi tədris olunur. Kursun tədrisi II tədris ilinin IV semestrində (5 s. mühazirə, 5 s. seminar) nəzərdə tutulur.
VII Davamiyyətə verilən tələblər:
Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır
VIII Qiymətləndirmə:
Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə.
Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır. İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymət meyarları aşağıdakılardır:
-10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
-9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam açа bilir.
-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
-7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
-6 bal- tələbənin cavabı əsasən düzgündür.
-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.
-0 bal- suala cavab yoxdur.
Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.
Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

№	Bal	Qiymət	
		Sözlə	Hərflə
1.	91-100	əla	A
2.	81-90	çox yaxşı	B
3.	71-80	yaxşı	C
4.	61-70	kafi	D
5.	51-60	qənaətbəxş	E
6.	50 və ondan aşağı	qeyri-kafi	F

IX. Davranış qaydalarının pozulması:Tələbə Universitetin daxili nizam –intizam qaydalarını pozduqda onun haqqında əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək**.**

X. Təqvim planı: Auditoriya saatı -10 saat (5 saat mühazirə, 5 saat seminar)

№	Keçirilən mövzuların məzmunu	Müh.	Sem.	Tarix
1	**Mövzu 1. "Multikulturalizmə giriş" fənninin predmeti, əhəmiyyəti və siyasət modeli kimi.** ***Plan:*** 1. Multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi 2. "Multikulturalizmə giriş" fənninin obyekti, predmeti və məqsədi, əhəmiyyəti. Fənnin digər ictimai elmlərlə əlaqəsi 3. Etnik-mədəni müxtəlifliyin tənzimlənməsinəmünasibətdə siyasət modelləri:assimilyasiya, izolyasiya, aparteid və multikulturalizm 4. Tolerantlıq, multikulturalizm və interkulturalizm ***Mənbə:*** [1;8;10]	2	2	
2	**Mövzu 2. Dini müxtəliflik. Dinin mahiyyəti və onun təzahür formaları** ***Plan:*** 1. Din fərdi dünyagörüşün və ictimai şüurun forması kimi 2. Dünya dinləri və yerli dinlər 3. Dini radikalizm və onunla mübarizə yolları 4. Müasir Azərbaycanda dövlət–din münasibətləri ***Mənbə:***[2;3;5;10]	2		
3	**Mövzu 3. Müasir dövrdə dünya dövlətlərində multikultralizm** ***Plan:*** 1. Müasir dövrdə Avropa ölkələrində multikulturalizmin vəziyyəti 2. ABŞ, Kanada və Avstraliyada multikulturalizm 3. Azərbaycan multikulturalizminin əsas xüsusiyyətləri ***Mənbə:*** [2;4;10;11]	2	2	
	Cəmi:10 saat	**6s.**	**4s.**	

XI. Fənn üzrə tələblər, tapşırıqlar:
Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, vərdiş və bacarıqları:
Öyrənən tanış olur:

- Multikulturalizmin mahiyyəti, yaranmasının səbəbləri, əhəmiyyəti, dünya, o cümlədən Azərbaycanın ictimai-fəlsəfi fikir tarixində formalaşmış tolerantlıq, multikulturalizm ideyaları və mültikulturalizmin nəzəri-ideoloji əsasları ilə;
- Etnik-mədəni müxtəlifliyin tənzimlənməsində dünya dövlətlərinin mütərəqqi təcrübəsi ilə;
- Multikulturalizm ilə sosial-iqtisadi inkişafın, daxili və xarici siyasətin qarşılıqlı münasibətini anlayacaqlar.
- Azərbaycanda multikulturalizmin inkişafında Ümummilli lider Heydər Əliyevin rolunu dərk edəcəklər.
- Multikulturalizmin Azərbaycan modelinin mahiyyətini, xüsusiyyətlərini, üstünlüklərini qavrayacaqlar.

XII. Fənn üzrə təlimin nəticələri:

-Multikulturalizmin əsas nəzəriyyəçiləri və konsepsiyalarının xüsusiyyətlərini təsvir edir;
-Multikulturalizm, onun formalaşması və inkişaf mərhələləri, Qərb ölkələrində nəzəriyyəsi və təcrübəsi haqqında mülahizələrini izah edir;
-Qərb ölkələrində və Azərbaycanda baş verən sosial-mədəni proseslərin mahiyyətini şərh edir;
-"Mədəni müxtəliflik" problemləri ətrafında ideoloji və siyasi mübarizəni təhlil edir;
-Çoxmillətli sosial-mədəni mühitdə müasir xarici təcrübədən istifadə edir;
-Multikultural mühitdə münaqişələrin həll üsulları və iş bacarıqlarının praktik tətbiqi mexanizmlərini əsaslandırır

XIII. İmtahan sualları

1. Multikulturalizm sosial hadisə kimi
2. Multikulturalizm siyasət modeli kimi
3. "Multikulturalizmə giriş" fənninin obyekti, predmeti və məqsədi.
4. "Multikulturalizmə giriş" fənninin digər ictimai elmlərlə əlaqəsi
5. Dinin mahiyyəti və onun meydana gəlməsinə dair nəzəriyyələr
6. Din fərdi dünyagörüşün və ictimai şüurun forması kimi
7. Dini radikalizm və onunla mübarizə yolları
8. Müasir Azərbaycanda dövlət–din münasibətləri
9. Buddizm
10. Xristianlıq
11. İslam Tarix
12. Zərdüştilik
13. Yəhudilik
14. Uzaq Şərq dinləri: Konfutsiçilik, Daosizm, Sintoizm
15. Etnik birliklər və onların təkamülü
16. Etnik kimlik, etnik dəyərlər və milli mentalitet
17. Etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə münasibətdə siyasət modelləri: assimilyasiya, izolyasiya, aparteid və multikulturalizm
18. Tolerantlıq, multikulturalizm və interkulturalizm
19. Multikulturalizm daxili və xarici siyasətin tərkib hissəsi kimi
20. Müasir dövrdə Avropa ölkələrində multikulturalizmin vəziyyəti
21. Multikulturalizmin Avstraliya modeli
22. Multikulturalizmin Kanada modeli
23. Multikulturalizm ABŞ modeli
24. Azərbaycan multikulturalizminin əsas xüsusiyyətləri
25. Multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı

XIV. Kollekvium sualları

Kollekvium sualları:

1. Multikulturalizm sosial hadisə kimi
2. "Multikulturalizmə giriş" fənninin obyekti, predmeti və məqsədi.
3. Etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə münasibətdə siyasət modelləri: assimilyasiya, izolyasiya, aparteid və multikulturalizm
4. Din fərdi dünyagörüşün və ictimai şüurun forması kimi
5. Dini radikalizm və onunla mübarizə yolları
6. Müasir Azərbaycanda dövlət–din münasibətləri
7. Buddizm
8. Xristianlıq
9. İslam Tarixi
10. Zərdüştilik

S/f.(Multikulturalizmə giriş) ***fənninin sillabusu*** **050706-Meşəçilik, 050701-Aqronomluq, 050616-İnformasiya texnologiyaları, 050709-Torpaqşünaslıq-aqrokimya, 050635-Qida mühəndisliyi** ***ixtisası (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Pedaqogika, psixologiya və incəsənət kafedrasının 25 noyabr 2025 ci il tarixli iclasında təsdiq olunmuşdur (Protokol №03).***

Fənn müəllimi: m.N.A.Ağayev

Kafedra müdiri: dos..A.X.Əliyev